

**Ötən saylarımızda xəbər verdiyimiz kimi Mədəniyyət vəTurizm Nazirliyi "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına uyğun olaraq 2011-ci il üçün Lənkəran şəhərinin "Azərbaycanın folklor paytaxtı" elan edilməsi ilə bağlı sərəncam imzalamışdır. Sərəncamın icrası ilə əlaqədar yerlərdə çoxsaylı tədbirlər keçirilir...**

# Lənkəran folklorumuzun 2011-ci il paytaxtı

**Buna nümunə kimi nominasiyalara uyğun təntənəli mərasimlərin, Respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfrans, dəyirmi masa, konsert, müsabiqə, festival, sərgi və sair tədbirlərin təşkilini göstərmək olar.**

Bu tədbirlərdən "Tarixin canlı şahidləri" qocaman el sənətkarları ilə görüşlər, "Bayatı axşamları", "Nənələr və nəvələr" folklor gecələri, "Lənkəran mətbəxi" festivalı və sair xüsusi diqqət çəkir.

Bütün bunlar belə bir inam təlqin edir ki, Lənkəran şəhərinin "Azərbaycanın Folklor Paytaxtı" elan olunması xalqımızın şifahi xalq ədəbiyyatını, adət və ənənələrini dünyaya daha yaxından tanıdacaq, mədəniyyət tariximizdə yeni bir səhifə açacaqdır.

Qeyd edək ki, bu əlamətdar hadisə ilə əlaqədar təşkilat komitəsi yaradılmış, tədbirlər planı təsdiq olunmuş və "Folklor şəhəri"nin rəsmi loqosu şəhərin üç yerində vurulmuşdur.

"Lənkəran - Azərbaycanın Folklor Paytaxtı - 2011" elan edilməsi ilə əlaqədar 16 mart 2011-ci il tarixində şəhərdə, Heydər Əliyev xatirə parkında bayram tədbiri təşkil olunmuşdur.

Burada el sənətkarlarının əl işlərindən, suvenirlərdən ibarət müxtəlif sərgilər nümayiş olunmuş, rayon idmançılarının çıxışları təşkil edilmiş, milli mətbəximizin nümunələrinə baxış keçirilmişdir. Tədbir çərçivəsində qədim oyun növləri olan kəndirdartma, milli güləş yarışları təşkil olunmuşdur. Burada Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı T.İbrahimova Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanmış kubok təqdim olunmuşdur.

Tədbirin bədii hissəsində "Nağıllar dünyasına səyahət" başlığı altında folklor kollektivləri, el sənətkarları, rəqs ansmblları, C.Cabbarlı adına və H.Rzayeva adına uşaq musiqi məktəblərinin folklor kollektivləri, mədəniyyət evlərinin özfəaliyyət kollektivləri və yerli müğənnilərin ifasında maraqlı konsert proqramı təşkil olunmuşdur.

Separadi mədəniyyət evinin "Nənələr" folklor mahnı və rəqs kollektivinin, Uşaq evi klubunun "Şənlik", Girdəni kənd mədəniyyət evinin "Bənövşə", Boladı və Vilvan kənd klublarının qızlardan ibarət rəqs ansamblının çıxışları, Azərbaycan xalqının qədim bayramı - Novruzun atributları olan ko-



sanın, keçəlin zarafatları, bahar qızının faytonla gəlməsi tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır. Tədbir respublika və yerli televiziya kanalları tərəfindən işıqlandırılmış, Cənub TV telekanalı isə tədbiri bütövlüklə nümayiş etdirmişdir.

Bu tədbirdən əlavə Liman şəhər klubunda, Girdəni, Türkəkəran, Şağlaser, Separadi, Şıxəkəran, Göyşəban, Mamusta, Hirkan, Gərmətük kənd mədəniyyət evlərində, Haftonu, Vilvan, Kərgəlan, Veravul, Boladi, Xanbulan, İstisu, Sütəmurdov kənd klublarında, özfəaliyyət kollektivləri tərəfindən 18-21 mart tarixlərində konsertlər təşkil olunmuşdur.

Heydər Əliyev muzeyi, tarixdiyarşünaslıq və H.Aslanovun evmuzeyində bayram münasibətilə açıq qapı günləri keçirilmiş, bu günlərdə muzeylərə gələn qonaqlara folklorumuz, milli adət-ənənələrimiz haqqında geniş məlumatlar verilmişdir.

**28 mart 2011-ci il tarixində Mərkəzi kitabxananın zalında qədim folklor adət-ənənələrimizi tanıtmaq məqsədi ilə folklorşünas alim Y.Ağazadə ilə görüş təşkil olunmuş, "Folklorumuz və müasir mədəniyyət" başlığı altında mühazirə oxunmuşdur.** Bütün keçirilmiş tədbirlər haqqında AzTV, ANS, Space, Lider, ATV, Cənub telekanallarında maraqlı verilişlər yayımlanır, eyni zamanda Mərkəzi kitabxananın rəsmi veb saytı olan www.lankaranmks.jimdo.com <http://www.lankaranmks.jimdo.com> saytında mütəmadi olaraq məlumatlar verilir.

15 aprel 2011-ci il tarixində tədbirlər planına əsasən Mədəniyyət və Turizm şöbəsi tərəfindən tətbiqi sənət ustalarının əl işlərindən ibarət sərgi təşkil olunmuşdur. Sərgidə el sənətkarlarının əl işləri, dulusçuluq nümünələri, həsirlər və s. nümayiş etdirilmişdir.








Tədbirin bədii hissəsində Separadi kənd mədəniyyət evinin "Nənələr" folklor mahnı və rəqs kollektivinin və Qirdəni kənd mədəniyyət evinin "Vənəvşə" folklor rəqs kollektivinin və C.Cabbarlı və H.Rzayeva adına uşaq musiqi məktəblərinin muğam ifaçılarının konserti təşkil olunmuşdur.

27 aprel 2011-ci il tarixində Lənkəran uşaq rəssamlıq məktəbində "Folklorumuz və adətlərimiz uşaqların gözü ilə" başlığı altında uşaqların rəsm əsərlərinin sərgisi təşkil edilmişdir.

Sərgidə uşaq rəssamlıq məktəbinin və eləcə də Lənkəran uşaq yaradıcılıq mərkəzinin şagirdlərinin milli folkloruмuza, adət-ənənələrimizə dair rəsm işləri nümayiş olunmuşdur.

**6 may 2011-ci il tarixində IV Ümumrespublika ənənəvi kitab bayramı keçirilmişdir. Tədbirdə dövlət rəsmiləri, şəhər sakinləri, yaradıcı ziyalılar, müharibə veteranları iştirak edirdilər. Tədbirdən əvvəl iştirakçılar dahi rəhbərin adını daşıyan xatirə parkında onun abidəsi önünə əklil və gül dəstəsi qoydular.**

Tədbirin keçirildiyi Mərkəzi kitabxananın qarşısına diqqəti cəlb edən tərtibat verilmiş və müxtəlif sərgilər təşkil olunmuşdur. Tədbir çərçivəsində 2011-ci ilin Lənkəran şəhərinin Azərbaycanın Folklor Paytaxtı elan olunması ilə bağlı tətbiqi sənət ustalarının və el sənətkarlarının əl işlərindən ibarət açıq hava altında sərgi keçirilmişdir.

Sərgidə dulusçuluq nümünələri, həsir toxuma və gildən düzəldilmiş müxtəlif əşyalar nümayiş olunmuşdur. Eyni zamanda kitabxananın qarşısında uşaq rəssamlıq məktəbinin şagirdlərinin rəsm əsərlərindən ibarət sərgi qurulmuşdur.



**Kitabxana tərəfindən ulu öndərin həyat və fəaliyyətinə aid kitablar, milli adət-ənənələrimizə və folklorumuza həsr olunmuş kitablar, yeni nəşrlər və Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə çap olunmuş latın qrafikalı ədəbiyyat nümayiş olunmuşdur.**

Tədbirdə iştirak edən folklorşünas alim Mirhaşım Talışlı, yazıçı-publisist Etibar Əhədov, Lənkəran Türk liseyinin müdiri Murad bəy və digər natiqlər çıxış edərək, kitabın həyatımızda rolu, milli adət-ənənələrimizin təbliği və ümummilli lider Heydər Əliyevin bu səpkidə apardığı işlər barədə geniş məlumat vermişlər.

Tədbirin bədii hissəsində uşaq musiqi məktəblərinin folklor kollektivləri, şəhər 5, 9 və 15 saylı bağçaların rəqs kollektivləri, şəhər 5 saylı tam orta məktəbin bədii qiraətçiləri və musiqiçilər maraqlı konsert proqramı ilə çıxış etdilər.

"Lənkəran şəhəri - Azərbaycanın Folklor Paytaxtı" elan olunması ilə əlaqədar və xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88 illiyi münasibətilə təsdiq edilmiş tədbirlər planına əsasən 10 may 2011-ci il tarixində Lənkəran Dövlət Dram Teatrında icra hakimiyyətinin dəstəyi ilə Mədəniyyət və Turizm şöbəsi tərəfindən musiqi bayramı keçirildi.

Tədbirdə dövlət rəsmiləri, şəhər sakinləri, yaradıcı ziyalılar və musiqisevərlər iştirak edirdilər. Tədbirdən əvvəl iştirakçılar dahi rəhbərin adını daşıyan xatirə parkında onun abidəsi önünə əklik və gül dəstəsi qoydular.

Tədbir çərçivəsində teatrın foyesində uşaq rəssamlıq məktəbi və Dövlət Rəsm Qalereyası tərəfindən tətbiqi sənət ustalarının və el sənətkarlarının əl işlərindən və uşaq rəssamlıq məktəbi şagirdlərinin rəsm əsərlərindən ibarət sərgi təşkil olunmuşdur. Sərgidə dulusçuluq nümunələri, həsir toxuma və gildən düzəldilmiş müxtəlif əşyalar nümayiş etdirilmişdir.

Tədbirin bədii hissəsi C.Cabbarlı adına 1 saylı və H.Rzayeva adına 2 saylı uşaq musiqi məktəblərinin kollektivləri tərəfindən ifa olunan muğamlar, xalq mahnı və rəqsləri və klassik mahnılarla davam etmişdir.

Konsertdə uşaq musiqi məktəblərinin xalq çalğı alətləri orkestri, kanunçalanlar qrupu və xor kollektivinin maraqlı çıxışları olmuşdur. Tədbirdə iştirak edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı T.İbrahimov görülən işlərə yüksək qiymət vermiş və təşkilatçılara təşəkkürünü bildirmişdir.

**Təbii ki, sadaladıqlarımız "Lənkəran şəhəri - Azərbaycanın Folklor Paytaxtı"dır çərçivəsində keçirilən tədbirlərin yalnız bir qismidir. Növbəti yazılarımızda gerçəkləşdirilən digər layihələr barədə də oxucularımıza ətraflı məlumat verəcəyik...**

**E. HƏSƏNQIZI**











